Ədalət .- 2026.- 23 yanvar (№3).- S.5.

# Erməni yazıçı Qarabağda erməni vəhşiliyindən yazdı

**Kardaş Onniq Livanda anadan olub, ABŞ-da yaşayan erməni əsilli rəssam və yazıçıdır. O, 1982-ci ildə nənəsini xilas edən türklərin şərəfinə "Kardaş" ("qardaş") adını götürüb.**

2001-ci ildə işğal olunmuş Azərbaycan ərazilərində qurulan separatçı rejimin "mədəniyyət nazirliyi"nin dəvəti ilə Şuşaya erməni diasporundan ilk rezident rəssam kimi gəlib və orada beş aydan bir qədər çox vaxt keçirib. Həmvətənlərinin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər barədə qəddar hekayələrdən o qədər şoka düşüb ki, şəhəri cangüdənin müşayiəti ilə gəzib.

Amerikaya qayıtdıqdan sonra o, Azərbaycanın mədəniyyət paytaxtında yaşadığı təcrübələri təsvir edən "Vəhşi qəşəng: Qafqazın axmaq salnaməsi" adlı kitab yazıb. Bundan sonra ailəsi də daxil olmaqla, bəzi ermənilər onu xain, digərləri isə ən dürüst erməni yazıçı adlandırıblar. (Kitabın PDF versiyası burada)

O, uzun illər Ermənistan rəhbərliyində təmsil olunan şəxslərin (Robert Köçəryan və Serj Sərkisyanın) fəaliyyətlərini və Qarabağda törədilən cinayətləri tənqid etdiyi üçün Ermənistanda "vətən xaini" elan edilmiş və təqib olunmuşdur.



"Mən gördüklərimi yazmaya bilməzdim. Ermənilər azərbaycanlılara qarşı törətdikləri qəddarlıqları qəhrəmanlıq kimi təqdim edirdilər, bu isə dəhşətli idi", - Kardaş Onniq deyir.

Onun kitabından bir hissəni təqdim edirəm, görün bu vəhşi millət nələr edib Azərbaycan xalqına:

"Sovet dövründə, Artsax sakinlərinə silah saxlamağa icazə verilməyəndə, 25 yaşlı Rafik doqquz azərbaycanlının başını çılpaq əlləri ilə əzib, sonra cəsədləri maşını ilə sürüyüb doğma kəndinə aparıb və orada basdırıb. O, şəxsi qəbiristanlığı ilə fəxr edir. Bir gün Rafik və mən 6-16 yaşlarında 11 uşağı pikniкə apardıq. Rafik uşaqlara ağzı qızıl dişləri ilə dolu bir azərbaycanlını necə tutduğu (o, həmişə çoxlu qızıl dişləri olanları axtarırdı), oğlanın əl-ayağını bağladığı, bütün dişlərini çıxartdığı, ağzından qan axarkən dərin bir çuxur qazması üçün ona kürək verdiyi barədə bir hekayə danışdı. Sonra kürəklə başını əzib çuxura basdırıb".

Onniq qeyd edir ki, erməni silahlıları azərbaycanlı mülki şəxsləri, o cümlədən qocaları və qadınları qətlə yetirdikdən sonra bu hərəkətləri ilə fəxr edirdilər. O, əsgərlərin öz aralarında "filan qədər türkü necə kəsdikləri" barədə söhbətlərini və bu qətlləri bir qəhrəmanlıq kimi bir-birinə danışmalarını dəhşətlə xatırlayır.

Onun şahidliyinə görə, Şuşa işğal edildikdən sonra şəhər sistemli şəkildə qarət olunub. O yazır ki, ermənilər təkcə qiymətli əşyaları deyil, evlərin qapı-pəncərələrini, dam örtüklərini belə söküb Ermənistana daşıyırdılar.

Müəllif bildirir ki, erməni komandirləri əsgərlərə azərbaycanlıları insan kimi deyil, "məhv edilməli olan obyektlər" kimi təqdim edirdilər.

O, Şuşada bir erməni əsgərin azərbaycanlı uşağın meyiti ilə necə rəftar etdiyini gördükdə mənəvi olaraq sarsıldığını və həmin an hər şeyi tərk edib getmək istədiyini bildirib.

"Mən ora bir erməni vətənpərvəri kimi getmişdim, amma ordan qatı bir antimillətçi kimi döndüm. Çünki gördüklərim insanlığa sığmırdı. Çünki qan içində boğulan körpələri və silahsız qocaların necə qətlə yetirildiyini gördükdən sonra heç bir ideologiya mənim gözümdə təmiz qala bilməzdi. Bizə uşaqlıqdan nifrət aşılanmışdı. Amma mən Qarabağda gördüm ki, bizim "qəhrəman" dediklərimiz əslində qatillərdir. Biz özümüzü qurban kimi təqdim edirik, amma mən orada gördüm ki, biz sadəcə cəlladıq", - o yazır.

Son cümləsi isə belə bitir:

"Mən susa bilərdim və Amerikada rahat yaşaya bilərdim. Amma Şuşada gördüyüm o gözlər - öldürülən insanların baxışları hər gecə yuxuma girirdi. Mən bu kitabı və bu sözləri ona görə yazdım ki, erməni xalqı bilsin: bizim "qələbə" dediyimiz şeyin arxasında minlərlə günahsız insanın ahı var".

Kitabı oxumağı hər kəsə tövsiyə edirəm, elə ermənilər özləri də oxusunlar.

**Zaur Əliyev**